3 iyun 2021-ci il, cümə axşamı XALQ QƏZETİ

# Cari ilin ən prinsipial Qran prisi

## Bakı – "Gözlənilməzlərin gözlənildiyi" şəhər



© xpb.cc / F1News.ru

***2021-ci il Bakı Qran prisi Formula 1 həvəskarlarına gərgin, prinspial mübarizə vəd edir. Belə ki, bu ilə qədər Bakının qədim və müasir mədəniyyətləri birləşdirən küçələrində keçirilən Formula 1 yarışları hər zaman maraqlı, dramatik qalibiyyətlər və gözlənilməz nəticələrlə yadda qalıb. Bakıda keçiriləcək növbəti yarışla bağlı səbirsizliklə gözlədiyimiz bir neçə məqam var ki, bunlardan biri də "Redd Bull" və "Mercedes" komandaları arasında yenidən qığılcımlanan rəqabətin necə nəticələnəcəyidir.***

"Red Bull" komandasının üzvü Maks Verstappenin Monako Qran prisindəki parlaq qələbəsindən sonra liderlik yarışında ikinci sıraya düşən "Mercedes" komandası bəlkə də mövsümün ən pis yarışını keçirdi. Bu uğursuzluğa baxmayaraq komandanın direktoru Toto Wolff bildirib ki, knyazlıqdakı çətin həftə sonu onu və Gümüş Oxları (Silver Arrows) Bakıdakı yarışa daha yaxşı hazırlaşmağa kökləyib. Bundan əlavə qeyd etmək olar ki, Lewis Hamilton ("Mercedes") Monte Karlo yarışını yeddinci yerdə tamamladı. Valtteri Bottas ("Mercedes") isə pit stop zamanı heyətin sağ ön təkəri vaxtında çıxara bilmədiyi üçün ikinci yerlə kifayətlənməli oldu. Bununla belə, Wolff, bu məğlubiyyətlərin komandaya təcrübə qazandırdığını qeyd edib. Qeyd edək ki, komandanın konstruktorları son çempionatda "Red Bull"dan bir xal geri qalıb. Lakin direktor vurğulayıb ki, F–1-in Azərbaycanda keçiriləcək yarışına hazırlaşarkən bütün bu problemləri həll etməyə çalışıblar. Hamilton isə deyib ki, Verstappenin arxasında olacaq və yaranacaq fürsətləri son dərəcə diqqətlə təqib edəcək.

İndiyə qədər Bakıda keçirilən dörd Qran pridən üçündə "Mercedes"in qələbə qazanmasına baxmayaraq, komandanın direktoru halqanın "Red Bull" komandasına daha uyğun olduğunu düşündüyünü deyib. Wolff bu fikirlərini əsaslandırarkən onu da əlavə edib ki, onlar üçün böyük uğursuzluqda tamamlanan Monako Qran prisindəki dövrə Bakıdakı yarış halqasından çox fərqlidir. Lakin bu fərqə baxmayaraq Bakıdakı yarış çox çətin olacaq.

"Mercedes"in iddialı açıqlamalarından sonra Maks Verstappen növbəti yarış haqqında praqnozlarını F–1 ictimaiyyəti ilə bölüşüb. Son qalib qeyd edib ki, Monakodakı gözlənilməz yeddinciliyin ardından yaxınlaşmaqda olan Bakı Qran prisi ilə Lewis Hamiltonun və ümumilikdə, "Mercedes"in yenidən yüksələcəyini düşünür. Xatırladaq ki, Monte Karlo Qran prisini problemsiz başa vuran Verstappen rəqabətsiz birinci olmuşdu.

Bakıda keçirilən son Qran pri yarışını 4-cü yerdə tamamlayan Verstappen "Mercedes"in buradakı dörd yarışdan üçündə qalib gəlməsinin, həm də liderlik nişanəsi olan qütb mövqeyini qazanmasının bu yarışda onları əsas favorit etmədiyini, "Red Bull"un sıralamadakı yerini itirmək istəmədiyini açıqlayıb. "Red Bull" komandasının pilotu onu da qeyd edib ki, Azərbaycan Qran prisi onlar üçün mövsümün ən prinspial yarışlarındandır. Çünki onlar bilirlər ki, "Mercedes" də əvvəlki səhvlərini təkrarlamamaq üçün Bakı turuna daha ciddi hazırlaşacaq.

Bakı Qran prisi mövsümün 6-cı yarışı olacaq. İyunun 4-dən 6-dək keçiriləcək yarışlar ilk 2 gündə pilotların sərbəst yürüşləri, eləcə də sıralama turları ilə əlamətdar olacaq. Həyəcanla gözlənilən əsas Qran pri yarışı iyunun 6-da start götürəcək. Bakı Qran prisi 51 turdan ibarətdir. Trekin uzunluğu, təxminən, 6 kilometrdir. Bakı şəhər halqası həm də Formula 1 yarışlarının ən sürətli trekidir. Burada maksimal sürət saatda 360 kilometr olaraq nəzərdə tutulub. Dövrə boyu 3 yüksəksürətli hissə və 20 döngə var.

Qeyd edək ki, koronavirus pandemiyası səbəbindən iki illik fasiləyə ayrılan Formula 1-in builki Bakı Qran prisi üçün bütün hazırlıq işləri tamamlanıb. Bakı şəhər halqası yarışlara tam hazırdır. Ümid edirik ki, " gözlənilməzlərin gözlənildiyi" adı ilə məşhurlaşan Bakı Qran prisi bu dəfə də maraqlı və bir o qədər də gözlənilməz nəticələrlə Formula 1 azarkeşlərinin və yarış iştirakçılarının yaddaşına silinməz xatirələr həkk edəcək.

***İmran ƏLİYEV, "Xalq qəzeti"***